# Şəhidlərə ehtiram əbədidir

**Xocalı soyqırımını xatırlayanda gözlərimiz qarşısında ermənilər tərəfindən amansızcasına qarlı meşələrdə, dağlarda öldürülmüş günahsız dinc insanlar gəlir. Bu qanlı faciə 33 il əvvəl baş versə də, hələ də onun ağrı-acıları ürəyimizi ağrıdır, qəlbimizi göynədir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları keçmiş ittifaqın Xankəndidəki 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərinə hücum etdilər. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın 613 nəfərin, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın həyatına son qoydu. 1275 dinc sakin əsir götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. 475 nəfər şikəst oldu.**




Hər il soyqırımı hadisəsinin baş verdiyi gün - fevralın 26-da ölkəmizdə də, onun hüdudlarından kənarda da Xocalı şəhidlərinin anım mərasimləri keçirilir. İnsanlığa sığmayan o dəhşətli faciədə şəhid olanların xatirəsi böyük ehtiramla yad edilir. Əvvəlki illərdən fərqli olaraq xalqımız iki ildir ki, Bakı şəhər Xətai rayon ərazisində Xocalı soyqırımı şəhidlərinin şərəfinə ucaldılmış "Ana fəryadı" abidəsini alnıaçıq, qürur və iftixarla ziyarət edir. Çünki düşməndən bütün şəhidlərimiz kimi, Xocalı faciəsi zamanı şəhid olanların da qisası alınıb.

Fevralın 26-sıdır. Soyuq bir qış günüdür. Azərbaycan xalqı axın-axın Xocalı şəhidlərinin xatirəsini anmaq üçün "Ana fəryadı" abidəsini ziyarət etməyə gəlir. Ziyarətə gələnlərin sonu görünmür. Ürəyində düşmənə nifrətlər yağdıran, əllərində gül dəstələri tutmuş insanlar kövrək addımlarla, üzlərində kədər abidəyə yanaşırlar. "Ana fəryadı"nın qarşısında bir anlıq ayaq saxlayaraq ehtiramla şəhidlərin xatirəsini yad etmək üçün baş əyirlər. Əllərindəki gül dəstələrini, əklilləri abidənin qarşısına qoyurlar. Ziyarətə gələnlərin arasında təkcə gənclər deyil, yaşlılar da, uşaqlar da var. Yaşından, tutduğu vəzifəsindən asılı olmayaraq ayağı yer tutan hər kəs Xocalı şəhidlərini anmaq, düşmənə nifrətlərini göstərmək üçün "Ana fəryadı" abidəsini ziyarət etməyə gəlir. Abidənin önündə və ətrafında gül, çiçək dəstələri, müxtəlif ölçülərdə əklillər var. Qan rəngli bu güllər və çiçəklər ziyarətə gələnlərin şəhidlərə göstərdiyi ehtiramın, hörmətin ifadəsidir.

Havanın soyuq olmasına baxmayaraq, insan selinin ardı-arası kəsilmir. Ziyarətə gələnlərə yaxınlaşıb ürək sözlərini dinlədik. İlk həmsöhbətimiz olan Azərbaycanın Milli Qəhrəmanı Famil İskəndərov adına Bakı şəhər 157 nömrəli orta məktəbin ibtidai sinif müəllimi Samirə Səlimova dedi ki, erməni qəsbkarlarının böyük amansızlıqla törətdiyi Xocalı faciəsini nə tarix, nə də xalqımız heç vaxt unutmayacaq, heç vaxt yaddan çıxarmayacaq. Biz daim Xocalı faciəsi ilə bağlı məktəbimizdə tədbirlər keçirir, şagirdlərimizə ermənilərin qanlı əməlləri barədə ətraflı məlumat veririk. Onlarda düşmənə qarşı nifrət hissi oyatmağa çalışırıq. Və buna nail oluruq. Çünki düşmən ürəyimizə Xocalı boyda sağalmaz yara vurub. Şükürlər olsun ki, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında 30 ilə yaxın erməni işğalında qalmış şəhər və kəndlərimiz kimi Xocalını da azad edib. Şəhidlərin qisası yerdə qalmayıb.







"Ana fəryadı" abidəsini siyarət edəndən sonra ürəyimdə bir rahatlıq hiss edirəm.

"Mən Aprel döyüşlərinin və İkinci Qarabağ müharibəsinin iştirakçısı olmuşam", - deyə Ramil Məmmədov söhbətimizə qoşuldu. - Döyüş yolum Füzulidən, Cəbrayıldan, Zəngilandan, Hadrutdan keçib. Xocalı faciəsi baş verəndə, torpaqlarımız ermənilər tərəfindən işğal olunanda biz balaca uşaqlar idik. Elə kiçik yaşlarımızdan düşmənlərimizdən qisas almaq ruhu ilə böyüdük. Qürur duyuram ki, 44 günlük Vətən müharibəsində iştirak etdim, torpaqlarımızın azadlığı uğrunda vuruşdum. Gərgin döyüşlərdə erməni işğalçılarını məğlub edərək qisasımızı aldıq. Çox şükürlər olsun ki, bu gün Xocalı azaddır. Adını çox eşitsəm də bu gözəl şəhəri görməmişdim. Bir neçə ay əvvəl Xocalıya getdim. Aman Allah, necə gözəl şəhərdir Xocalı. Aparılan quruculuq işlərindən fərəhlənirsən. Zaman keçdikcə Qarabağ daha da gözəlləşəcək. Artıq həsrət, nisgil bitib, ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olunub. Bu gün doğma Azərbaycanın üçrəngli Dövlət bayrağı işğaldan azad edilən bütün torpaqlarımızda - Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada və Xocalıda dalğalanır. Bütün bunları görməkdən qürur hissləri keçiririk. İftixarla demək olar ki, Azərbaycan xalqı tarixinin ən şərəfli və ləyaqətli günlərini yaşayır.

Evdar qadın Şahanə Xəlilova "Ana fəryadı" abidəsini ziyarət etməyə 4 yaşlı qızı Aişə ilə gəlmişdi. Söhbətimiz zamanı o dedi ki, mən ziyarətə ürəyimin hökmü ilə gəlmişəm. Məni bura gətirən şəhidlərə ehtiram və hörmətdir. Balaca qızım da mənimlə birlikdədir. İstəyirəm ki, balalarımız dostunu, düşmənini kiçik yaşlarından tanısınlar. Bu gün bir gözümüz ağlayırsa, bir gözümüz də gülür. Çünki gözüyaşlı, qəlbiyaralı Xocalı şəhəri də Azərbaycan Ordusunun 19-20 sentyabr 2023-cü ildə uğurla həyat keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni separatçılarından azad olundu. Bu uğurlu döyüşlərdə düşmənlərdən Xocalı soyqırımı qurbanlarının da qisası alındı. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Ağdərə, Əsgəran, Xocavənd, Xankəndi ilə yanaşı, Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını ucaltdı. Qürur dolu bu səhnələri iftixarla seyr etdik. Xocalı sakinləri artıq doğma ocaqlarına qayıdırlar. Xocalı yenidən qurulur, dirçəldilir.

"Ana fəryadı"nı ziyarətə gələnlərin ardı-arası kəsilmir. Xalqımız Xocalı soyqırımında şəhid olanların xatirəsini hörmətlə yad edir, ehtiramla anır.

***Vahid MƏHƏRRƏMOV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 27 fevral (№ 44).- S.5.